**Vladimir Piştalo**

# NİKOLA TESLA: MASKALAR ARASINDA PORTRET

Tərcüməçi:
Fəxrəddin Ağazadə

qanun nəşriyyatı

Vladimir Pištalo

# TESLA: A PORTRAIT WITH MASKS

İyirminci əsrin qeyri-adi və maraqlı ixtiraçısı haqqında cazibədar bir roman.

Teslanı heç vaxt düzgün başa düşməyiblər. Atası serb-pravoslav keşişi olan müəllifin gəncliyi indiki Xorvatiyada keçib, elə o zaman da istedadı parlayıb, sonralar Nyu-Yorkda keçən coşqun yaradıcılıq illərində Tomas Edisonla qızğın rəqabət ona qələbə də, uğursuzluq da gətirib. Bu illərdə Teslaya cadugər kimi də, dahi kimi də baxıblar. Tesla elektrikin meydana gəlməsi ilə başlayan sürətli dövrü təsvir edir, bəsirətli dünyagörüşü publikanın diqqətini çəkir. Dəyişən cərəyanın elektrik sistemi və onların arasında simsiz əlaqə ilə bağlı uğurlu ixtira ilə yanaşı yüzlərlə başqa ixtiralar da vardı. Bəs, bu obrazın arxasında duran kimdir? Vladimir Piştalo böyük qardaşını itirmiş bir insanın daxili aləmini açır – bu insan dəliliyə və şöhrət hərisliyinə qarşı vuruşur, müflis olanda isə heç bir qurumun dəstəyinə inamı olmur. “Tesla: maskalar arasında portret” romanı bu gün də təsirini saxlayan uzaqgörən bir insanın uğurlu yol hekayəsidir.

**Vladimir Pištalo**
**TESLA: A PORTRAIT WITH MASKS**
**Vladimir Piştalo**
**NİKOLA TESLA: MASKALAR ARASINDA PORTRET**
Bakı, Qanun Nəşriyyatı, 2023, 440 səh.

Janr: non-fiction/bioqrafik
Ölçü: 135x210 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 20.01.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Fəxrəddin Ağazadə |
| Redaktor: | Atabəy |
| Korrektorlar: | Bəsti Məmmədova, Aysel Rzazadə |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-567-0

© Qanun Nəşriyyatı, 2023
© 2008 by Vladimir Pištalo

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları “Qanun Nəşriyyatı”na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# GƏNCLİK

## 1. Ata

### *Gözəl fenomen*

Bu dünya nədir?

Varlığın səbəbi nədir?

Bu fikirlər həmişə Milutin Teslanın beynində dolaşırdı. Ta ki sonuncu və daha çox narahatedici sualı tapana kimi: Bəs "Nə" özü nədir? Bura çatanda keşişin beyni dondu və başı gicəlləndi.

İnsan düşüncəsi praqmatikdir, daha çox alət rolunu oynayır. Məsələn, mişar kimi. Kimsə yayı mişara sürtməklə musiqi səsi çıxara bilər, amma onun əsas məqsədi bu deyil, ağacı kəsməkdir.

O, şagirdlərinə doğru qərarların qəbulu üçün düzgün vaxt seçməyi məsləhət görürdü:

– Məsələn, mənim hərbi akademiyanı bitirməyimə az qalmışdı, lakin bundan imtina edib, keşişliyi seçdim.

Serb xalq mahnılarında tez-tez xatırlanan küləklər şəhəri Sendə yerləşən dini cəmiyyət Milutinin ilk təyinat yeri oldu. Burada o, həmişə ziyarətçilərə deyərdi:

*"Sizin yaxşılığınız üçün xahiş edirəm və məsləhət görürəm ki, məhdud düşüncəli adam olmayasınız. Hamınıza ağıl verilib. Tərəqqipərvər və xalqpərəst olun. Azadlıq, bərabərlik və qardaşlığa önəm verin… ".*

Cəmiyyət üzvləri onun insanları aydınlatmaq cəhdlərini sevmədilər. Onu dəli və təlxək adlandırdılar. Xəstəlikdə günahlandırıb, işdən çıxartmaq istədilər. O isə: "Belə adamların əhatəsində heç kim sağlam qala bilməz", – dedi.

– Elə bilirsiniz, mən burada qalmağımda nəsə xeyir güdürəm?! – deyə Milutin Tesla istehza ilə onlardan soruşdu. – Bessarabiyaya köçməyim belə bundan pis olmazdı. Amma Milutin atanı Bessarabiya əvəzinə, Likadakı Smilyan kəndinə göndərdilər. Bu kənddə olduğu müddətdə Milutin Tesla hətta canavar gözlərinin parıltısıyla aydınlanan qaranlıq qış gecələrində belə atını yəhərləyib ölüm döşəyindəki xəstənin son ayinlərinin icrası üçün yola çıxmaqdan çəkinmədi. Uzun yoldan sonra keşiş tələsik sansar xəzli paltosunun qarını çırpar və xəstənin olduğu daxmaya girərdi. Çarpayıya yaxınlaşar, orada yatan adama tərəf əyilər və qayğıkeşliklə, asta səslə deyərdi: "**İndi ürəyini açıb səni incidən, gizlin nə varsa hamısını pıçıldaya bilərsən, çünki Tanrı pıçıltı ilə deyilənləri eşidir".** Kobud adamlar ürəklərini açar və öz həyatları barədə heç kimin heç vaxt eşitmədiklərini söyləyərdilər. Keşiş tövbə zamanı deyilənlərin çoxunu unutmağa çalışardı.

Qarla örtülmüş evində Milutin Tesla vaxtını mütaliə ilə keçirərdi. O, dəmir yolları, Krım müharibəsi və Londonda tikilmiş yeni şüşə saray haqqında oxuyurdu. Keşiş yerli qəzet üçün Dalmatiyadan Likaya qədər "yağ kimi" yayılmış vəba xəstəliyi haqqında məqalə yazdı. O, Karlovas mitropoliyasının ən ucqar yeparxiyasındakı xalq məktəblərinin himayəçilərinə yaradılan "saysız-hesabsız əngəllər" barədə də yazırdı. "Serb carçısı"nda o, Müqəddəs Pyotr gününə təsadüf etmiş atmosfer parıltılarının yaratdığı "gözəl fenomen" barədə yazdı. Heyrətlənmiş Milutin Tesla yazırdı ki, Fenomen qığılcım şəlaləsinə bənzəyirdi və nə qədər uzaqda olsa da, bir

o qədər yaxın görünürdü, sanki əlini uzatsan toxunacaqsan. İşıq şəlaləsi səmada mavi zolaqlar buraxaraq, təpələrin arxasında itdi. Bu zaman elə gurultu oldu ki, sanki nəhəng bir qüllə uçub dağıldı və həmin səs uzun müddət Velebitin cənub yamacında əks-səda verdi. *Tanrının bu kiçik fenomenindən* sonra ulduzlar uzun müddət "solğun" qaldı. Bu hadisəni adi adamlar müxtəlif cür yozdu. Ağıllı müşahidəçi isə (Milutin Teslanın özü) "Tanrı təbiətinin təzahürü"nün bir göz qırpımında bitməsinə təəssüf hissi keçirdi.

Hadisədən əvvəl ağır bürkü oldu, sonra yağış yağdı, axşama yaxın səma aydınlaşdı. *"Hava sərinləmişdi, səma gülürdü, ulduzlar heç vaxt olmayan kimi parlayırdı; qəflətən şərqdən ildırım çaxdı və sanki üç yüz şüa qərbə uçdu, ulduzlar soldu və təbiət dondu…"*

***Dünya parlamenti***

Ataların davranışı dəyişəndə uşaqlar üçün həmişə qorxulu olur. Bazar günü moizəsinə hazırlaşan Milutin evdəkilərə onun otağının qapısını açmağı qadağan etdi. Bağlı qapılar arxasından birdən qəzəbli kişi səsi gəldi. Sonra sakitləşdirici qadın səsi eşidildi və birdən o, isterik qışqırıqlarla əvəz olundu. Bunu eşidən and içə bilərdi ki, otaq adamla doludur. Moizə teatra çevrildi. Milutininin qapalı yerdə dəyişkən səslərlə özü ilə mübahisəsi Cuka Tesla və oğullarını qorxutmuşdu. Qızları da qapını açmağa cəsarət etmirdilər, çünki atalarının bu dəyişkənliyi onları da qorxudurdu. Anidən sirli bir yerə çevrilmiş adi otaqdakı keşiş almanca pıçıldayıb, serb dilində qışqırıb, macarca fısıldayıb, latınca mırıldayanda, kimsə də slavyanların qədim kilsə dilində mızıldanırdı.

Bu da izah olunmalı daha bir "gözəl fenomen" idi? Doğurdanmı bu Smilyanlı müqəddəs Antoni öz günahları ilə danışırdı? Görəsən, o, tək idimi? Həqiqətənmi bu tərki-dünya poliqlot özünün *dünya parlamentinə* çevrildiyini təsəvvür edirdi? Yaxud o, əzbərlədiyi moizəni özünün həm tragik, həm komik qəhrəman, həm də xor kimi çıxış etdiyi dram əsəri sayırdı?

## 2. Ana

**Daşda qığılcım**

Nikola və Danila gözlərində parıltı analarını dinləyirdilər. Ana əlində toyuq başı çırpına-çırpına onlardan tapmaca soruşurdu: Meşə ilə gedir, xışıldamır, su ilə gedir, bulandırmır. Bu nədir?

– Kölgə! – həmişə Nikolanı qabaqlayan Danila cavab verdi.

– Suyu kim sevmir? – ana davam etdi.

– Pişiklər və saatlar!

Kiçik oğlanın ən sevimli nağılları "Həqiqət və yalan", "Özünü xeyirxah göstərən şeytan nələr edir" və "Sehrbazın şagirdi" idi. Sonuncuda şeytan şagirddən nə öyrəndiyini soruşur. O cavab verir: "Heç nə, hətta bildiklərim də yadımdan çıxıb". Nikola bu nağılları sevirdi, çünki onlarda kiçik qardaş həmişə əsas olurdu. Cuka onu və Marisanı nağıllarla tərbiyə edir, həmişə yatanda onlara nağıl danışırdı:

*– Dilənçi paltarı geyinmiş müqəddəs Sava dünya səyahətinə çıxanda çoxlu var-dövləti olan Havananın sarayına gəldi…*

Nikolanın gözləri yumuldu. O, yuxunun qanadlarında uçurdu.

...O zaman müqəddəs Sava onu əsa ilə vəftiz etdi[1] və Havananın sarayı gölə çevrildi. İnsanlar deyirlər ki, hər il həmin gün gölün suyu lıqqıldayır sanki dərinlikdə xoruz banlayır...

Kor anası ilə yaşayan Cuka Mandiç ev işləri haqqında hər şeyi erkən öyrənmişdi. Anasının nağıllarını nəzərə almasaq, onun uşaqlığı olmamışdı. O, paltar üçün parça toxuyur, balacaların qayğısına qalırdı. Dəhşətli vəba isə Likaya "yağ kimi" yayılırdı. Cukanın atası bir qonşu ilə ayini başa çatdırmamış digəri ölürdü. Qız özü onlardan beş nəfərin bədənini yuyub, geyindirmişdi.

Ərə getməklə Cuka çiyinlərinə daha bir evin qayğılarını yüklədi. Yunan filosoflarının və digər müdriklərin fikirlərin qəbul edən Milutin Tesla deyirdi:

[1] Vəftiz etmək – xaç çəkmək

– Keşişin toxa tutduğu yerdə tərəqqi haqqında fikirləşməyə dəyməz.

Cuka kilsə torpaqlarını çəpgöz xidmətçi Manna ilə əkib-becərirdi.

Odun doğrayan zaman o, Maneyə deyirdi: – Hara gəldi baxma, lazım olan yerə hədəflən!

Ana Nikolaya danışırdı ki, erkək arı dişi arını səmada mayalandırır və əgər qaranquş dişi arını yeməsə, yeni arılar peyda olur.

– Arıların birinci düşməni qaranquşlar və kirpilərdir!

Bir dəfə Nikola yıxıldı və alnı stola dəydi. Anası "ağrımaması üçün" onu öpdü, gülümsəyə-gülümsəyə onun şişmiş başını tumarladı və ucadan dedi:

– Zərbə daşdan qığılcım qopardar, onsuz isə həyatım xoşbəxt olmaz.

Qarnı ağrıyanda anası əlini onun göbəyinə qoyar, sakit və ritmlə başlayardı:

Qüdrətli Tanrı, nə gözəl hadisədi
Bayraqdar Miliç evləndi…
Öz gözəlliyinə tay qız tapa bilmirdi
Böyük qəhrəman hər gözəldə görürdü bir ayıb
Az qalmışdı ki, evlənməsin. (ingilis dilindən sətri tərcümə: red.)

Ağrı ötüşər, oğlan özünü yaxşı hiss edərdi.

Cuka bütün günü yaylıqda gəzirdi. Səhər hamıdan 2 saat tez oyanırdı. Mətbəxdə qapısı açıq sobanın qabağında otururdu. Nikola oyanar və xəlvətcə onun saçını daramasına baxardı. Sobadan alov şölələnirdi. Nikola isə güdürdü… Odun istisindən ananın rəngi sanki günəş altında qalmış kimi qaralırdı. Ana tamam fərqli olmuşdu. Nikola gizlincə onu izləyirdi.

Ananın həyatı dərin idi. Ananın həyatı "səssiz" keçirdi – uzaq bir meşədə aşsa belə, şaqqıltısını kimsənin eşitmədiyi ağac kimi səssiz.

**Ağaclar**

O, Boqdanıç dağındakı meşəyə tərəf üzünü çevirib:

– Eşidirsən?

– Nəyi? – dedi Nikola

– Boqdanıçdakı ağacların söhbətini.

– Nə barədə?

– Bax, ağcaqayın ah çəkir: “Buz qandallardan nə vaxt xilas olacağıq?” – “Səbir edin, – bas səsli küknar ona məsləhət verir. – Üç aydan sonra biz buz zirehini atacağıq, siz ağcaqayınlar da yarpaqlayacaqsınız”.

– Başqa nə danışırlar?

– Ağcaqayınlar zümzümə edir: – Dan ulduzu günəşin darvazalarını açır. Tanrı Yarilo içəridən çıxıb, ana torpağa deyir: “Xam torpaq, məni sev, təkcə mənim ol, qiymətlim ol, mən Günəş Tanrısı da səni zümrüd göllər, qızıl qumlar, yaşıl otlar, sürətli çaylarla, quşlarla, meyvələrlə, güllərlə bəzəyim. Sənsə mənə çoxlu övlad ver”. Yaz günəşinin şüaları və suların şırıltısı onun ilk yarpaqlarını salamlayırdı.

Nikola diqqətlə qulaq asıb güldü:

– Xeyr, elə deyil! Sən məni aldadırsan.

Anası onlara heyvanlar haqqında təmsil yerinə həmişə bitkilərdən danışardı. O, otları yaxşı tanıyırdı və deyirdi ki, onlar kiminsə ruhu ilə əlaqəlidir. Məsələn, qarağaclarda, küknarlarda və kül ağaclarında vila[1] məskunlaşıb.

– Bəs vilalar nədən əmələ gəlir?

– Vilalar payız kolxikum otundan yaranır, – ana hazırcavablıqla deyirdi. – Ona görə də oğlanlar bu otu tapdalamaqdan qorxurlar. Kolxikumu tanımağı öyrədəcəm ki, sən də onu heç vaxt tapdalamayasan.

---

[1] Vila – cənubi slavyan folklorunda mifoloji, xeyirxah dişi varlıq

– Bəs vilalar harada yaşayır?

– Mən onların hansı ağaclarda olması barədə sənə dedim. Bir də porsuq ağacı vilaların məskənidir. O, yalnız təmiz yerdə bitir, – Cuka cavab verdi.

– Bəs vilalar nə qədər yaşayır? – Nikola sakitləşmədi.

Ana çiyinlərini çəkdi:

– Vilalar sarımsaq toxumları ilə qidalanır və həyat onları darıxdırmayana qədər yaşayırlar. Darıxanda toxum yeməyi dayandırırlar və ağrısız, əzabsız ölürlər.

Nikola anasının belə çox bilməsi ilə qürurlanırdı, sanki o da nə vaxtsa vila olmuşdu. Aydınlıq ruhlarla dolu, bitkilərin insanlara oxşadığı aləm haqqında hekayələri eşidəndə atasının niyə qəzəbləndiyini anlamırdı. O zaman hələ o, başa düşmürdü ki, bu möcüzəli hekayələr sadəcə vilalar və bitkilər haqqında deyil, həm də Allahdan çox yaşlı olan Tanrılar haqqındadır.

– Əgər yaxınlıqda kilsə yoxdursa, onda küknar və ya cökə altında dua etmək olar, – ana Danila və Nikolaya məsləhət görürdü.

Ana dünya yaratmışdı, sonra onu kitablarda yazmaq üçün ata zühur etdi. Onun hekayələrini eşidəndə ata burnunu qırışdırırdı. Çoxlu keşişlər olan nəsildə bu rəvayətlərin nə üçün qorunub saxlanıldığını başa düşə bilmirdi.

– Bunları at bir kənara, – Milutin mızıldandı. – Şəri burax, xeyri götür. Ağrıdan və kədərdən imtina et, sağlamlığı götür.

## 3. Qar topası

Pravoslavların Milad bayramının ikinci günündə üç oğlan – Nikola, Vinko və Nenad valideynlərinin nəzarətindən qaçıb, Smilyandakı meşənin dərinliyinə getdilər.

– Necə gözəl qardır! – Nikola gülümsədi.

– Elədir! Göz oxşayır, – Vinko dilləndi.